# Avropanın enerji təhlükəsizliyinin mühüm sütunu

***Martın 3-də Bakı Konqres Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib. Ukrayna və İran müharibələrinin davam etdiyi bir vəziyyətdə dünyada enerdi təhlükəsizliyinin təminatı məsələsi ən aktual mövzu olaraq qalmaqdadır. Belə bir fonda Bakıda məlum müzakirələr aktuallığı ilə seçilir. Bu görüş bir daha Azərbaycanın qlobal enerji təhlükəsizliyindəki artan rolunun göstəricisi kimi dəyərləndirilir.***




## Gündəm

Tədbirdə çıxış edən Prezident İlham Əliyev də bildirib ki, Azərbaycan enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu da oynayır. Dövlətimizin başçısı vurğulayıb: "Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik".

Həmçinin, Biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. "Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur", - deyə Prezident İlham Əliyev bildirib. Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen isə qeyd edib ki, «Rusiya qazından asılılığımızı davamlı şəkildə azaltdığımız dövrdə Azərbaycanla tərəfdaşlığımızın vacibliyi yalnız artacaq, Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək».

O bildirib ki, Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə təxminən 24 milyard

> *TANAP vasitəsilə Mərkəzi Asiya ölkələri ilə, xüsusilə Azərbaycanla hərbi və siyasi əməkdaşlıq da genişlənir*

avro qazanıb. Mövqeyini açıq şəkildə bəyan etməyi fürsət adlandıran komissar vurğulayıb: "Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq". Xatırladaq ki, Azərbaycanın ən mühüm enerji layihəsi sayılan Cənub Qaz Dəhlizi layihəsi son illərdə təkcə Azərbaycanın enerji ixrac strategiyasının əsas istiqamətlərindən biri kimi deyil, həm də regionda yeni enerji və geosiyasi balans formalaşdıran mühüm platforma kimi qiymətləndirilir. Bu layihə vasitəsilə Xəzər hövzəsinin enerji resursları Türkiyə üzərindən Avropa bazarlarına nəql olunur və Ankara regionun əsas enerji tranzit qovşaqlarından birinə çevrilir. Eyni zamanda, Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı enerji sahəsində yeni mərhələyə qədəm qoyaraq regional əməkdaşlığın daha geniş formatda inkişafına şərait yaradır.

Hazırda Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb və boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına görə Azərbaycan dünyada birinci yerdədir. Qaz təchizatının coğrafiyasının genişlənməsi, yeni bazarlara çıxışın təmin olunması, həmçinin "Azəri-Çıraq-Günəşli", "Abşeron", "Ümid" və "Şahdəniz" yataqları üzrə hasilatın artırılması planları Azərbaycanın enerji ixrac imkanlarını daha da genişləndirir.

> *Bu gün Azərbaycan təkcə karbohidrogen ehtiyatları ilə deyil, həm də yaşıl enerji potensialı ilə diqqət mərkəzindədir*

■ **Mövzu ilə bağlı türk ekspert Engin Özer Cənub Qaz Dəhlizinin regionun enerji təhlükəsizliyi, Türkiyənin enerji tranzit mərkəzi kimi rolu və Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının inkişafı baxımından əhəmiyyətini dəyərləndirib.** Onun sözlərinə görə, Cənub Qaz Dəhlizinin əsas komponentlərindən biri olan TANAP layihəsi təkcə regional enerji infrastrukturu deyil, həm də Türkiyənin enerji təhlükəsizliyi strategiyasında mühüm geosiyasi alət kimi çıxış edir. Ekspert bildirib ki, Türkiyənin enerji təhlükəsizliyi ilə bağlı əsas strategiyalarından biri mümkün qədər çox sayda boru kəmərinin ölkə ərazisindən keçməklə Avropaya çatdırılmasıdır. Bu baxımdan TANAP layihəsi xüsusilə Ukrayna müharibəsindən sonra daha da əhəmiyyətli olub.

"Bu gün artıq bəzi layihələrin xüsusilə "Türk axını" və "Mavi axın" kimi qaz kəmərlərinin gələcəyi əvvəlki qədər aydın görünmür. Avropanın qaz idxalı ilə bağlı qəbul etdiyi yeni qərarlar və enerji siyasətində baş verən dəyişikliklər bu layihələrin populyarlığının azalmasına səbəb olur. Bu şəraitdə TANAP yalnız Türkiyənin deyil, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və Türkiyə üçün Avropa ilə diplomatik münasibətlərdə ciddi bir rıçaq kimi çıxış edir", - deyə E.Özer vurğulayıb. O qeyd edib ki, Ukrayna müharibəsindən sonra Rusiyadan qaz idxalının azaldılması Mərkəzi Asiya qaz ehtiyatlarının strateji əhəmiyyətini daha da artırıb. Bu baxımdan TANAP həm də regionda strateji əməkdaşlıq platformasına çevrilib.

Ekspertin fikrincə, layihə yalnız enerji təhlükəsizliyi ilə məhdudlaşmır: "TANAP vasitəsilə Mərkəzi Asiya ölkələri ilə, xüsusilə Azərbaycanla hərbi və siyasi əməkdaşlıq da genişlənir. Bu səbəbdən layihəyə yalnız enerji layihəsi kimi baxmaq doğru olmaz".

E.Özer bildirib ki, uzunmüddətli perspektivdə Avropanın artacaq qaz tələbatının Mərkəzi Asiya, xüsusilə Türkmənistan qazı hesabına ödənilməsi gözlənilir və bu qazın əsasən Xəzər regionu vasitəsilə nəql olunması TANAP-ın strateji rolunu daha da gücləndirəcək. "Rusiya-Ukrayna müharibəsindən əvvəl bu qədər açıq görünməyən bir proses indi daha aydın şəkildə müşahidə olunur. TANAP layihəsi Orta Asiyada bir sıra ölkələr arasında siyasi yaxınlaşmanın və əməkdaşlığın formalaşmasına da təsir göstərir və bu proses getdikcə sürətlənir", - deyə ekspert əlavə edib.

■ **"Bakı şəhərində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları Azərbaycanın qlobal enerji sistemində artan əhəmiyyətini bir daha nümayiş etdirir", - bu fikirlər isə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev bildirib.**

Onun sözlərinə görə, hazırkı mərhələdə dünya enerji bazarlarında müşahidə olunan qeyri-sabitlik, geosiyasi qarşıdurmalar və enerji resurslarının alətə çevrilməsi cəhdləri etibarlı və məsuliyyətli tərəfdaşlara olan ehtiyacı daha da artırır. "Azərbaycan uzunmüddətli və düşünülmüş enerji strategiyası həyata keçirərək həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Cənub Qaz Dəhlizi bu baxımdan yalnız iqtisadi layihə deyil, eyni zamanda geosiyasi sabitliyə xidmət edən strateji platformadır. Azərbaycan qazının Avropa bazarlarına nəqli enerji mənbələrinin şaxələndirilməsi siyasətində mühüm yer tutur. Nazirlərin 12-ci iclasında ötürücülük gücünün artırılması, yeni tərəfdaşların cəlb edilməsi və uzunmüddətli müqavilə mexanizmlərinin genişləndirilməsi məsələlərinin müzakirəsi Azərbaycanın enerji təchizatında davamlılıq prinsipinə sadiqliyini göstərir. Ölkəmiz üzərinə götürdüyü bütün öhdəlikləri vaxtında və tam yerinə yetirir. Bu isə Azərbaycanın



beynəlxalq imicini daha da gücləndirir", - deyə deputat əlavə edib.

Komitə sədri bildirib ki, paralel olaraq Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində keçirilən 4-cü iclas Azərbaycanın enerji siyasətində keyfiyyətcə yeni mərhələnin başlanğıcını simvolizə edir. Onun sözlərinə görə, bərpaolunan enerji mənbələrinin inkişafı, xüsusilə külək və günəş enerjisi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi Azərbaycanın uzunmüddətli dayanıqlı inkişaf strategiyasının tərkib hissəsidir: "Bu gün Azərbaycan təkcə karbohidrogen ehtiyatları ilə deyil, həm də yaşıl enerji potensialı ilə diqqət mərkəzindədir. Xəzər dənizinin böyük külək ehtiyatları, eləcə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən "yaşıl enerji zonası" konsepsiyası ölkəmizin gələcək enerji xəritəsində mühüm yer tutur. Bu istiqamətdə xarici investorlarla əməkdaşlıq və ixrac imkanlarının yaradılması enerji portfelimizin şaxələndirilməsinə xidmət edir. Təhlükəsiz, fasiləsiz və dayanıqlı enerji təchizatının təmin edilməsi yalnız iqtisadi deyil, həm də milli təhlükəsizlik məsələsidir. Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış və çoxşaxəli enerji siyasəti ölkəmizi regionda sabitləşdirici gücə çevirir. Həm ənənəvi, həm də alternativ enerji sahəsində atılan addımlar Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminatçılarından biri kimi mövqeyini daha da möhkəmləndirir".

■ **Azərbaycan ilə Avropa İttifaqının (Aİ) mövcud enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyur. Bu sözləri isə Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban deyib.**

> *Azərbaycanla Avropa İttifaqı arasında enerji üzrə yüksəksəviyyəli dialoq yeni mexanizm deyil*

"Fikrimcə, dünən Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının yekunu məhz Avropa İttifaqı və Azərbaycanın Brüsseldə enerji üzrə yüksəksəviyyəli dialoq keçirmək barədə razılığa gəlməsidir. Özü də bunun Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen tərəfindən bəyan edilməsi onu göstərir ki, indiyə qədər mövcud olmuş enerji əməkdaşlığı bundan sonra yeni mərhələyə qədəm qoyacaq", - deyə ekspert qeyd edib. O bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasında enerji üzrə yüksəksəviyyəli dialoq yeni mexanizm deyil. Yeni söhbət tamamilə yeni platformadan yox, mövcud əməkdaşlığın artıq institusional şəkildə davamından gedir: "Xatırlatmaq istərdim ki, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji əməkdaşlığının bu il artıq 20-ci ili tamam olur. Məhz 2006-cı il noyabrın 7-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və o zaman Avropa Komissiyasının sədri olan Xose Manuel Barrozu tərəfindən imzalanmış Enerji üzrə Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu bu dialoqun hüquqi əsasını qoydu. 2011-ci il yanvarın 13-də Bakıda Azərbaycan və Aİ arasında "Cənub Qaz Dəhlizi üzrə Birgə Bəyannamə"nin imzalanması Avropa İttifaqının Azərbaycandan təbii qaz idxalı üzrə layihələrə dəstək üzrə işçi çərçivənin müəyyənləşdirilməsinə gündəmə gətirdi. 2022-ci il iyulun 18-də isə Bakıda Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin imza atdıqları "Enerji sahəsində Əməkdaşlıq Memorandumu" dəyişən dünya çapında enerji təhlükəsizliyinin artırılması üçün Azərbaycandan Avropa İttifaqına qaz tədarükünün 2 dəfə artırılması barədə tərəflərin razılaşması idi". İlham Şabanın sözlərinə görə, yüksəksəviyyəli enerji dialoqu artıq sırf şirkətlərarası və ya texniki səviyyədə keçirilən görüşlər deyil.

"Bu, Azərbaycanla Avropa İttifaqı arasında enerji əməkdaşlığı sahəsində strateji və siyasi qərarların formalaşdırılmasını özündə ehtiva edən mərhələ olacaq. Bu baxımdan Brüsseldə planlaşdırılan yüksək səviyyəli enerji dialoqu ehtimal ki, təkcə mövcud qaz həcmləri deyil, həm də uzunmüddətli enerji keçidi gündəliyi (bərpaolunan enerji, yaşıl enerji kabeli layihələri və sair) ətrafında Azərbaycanla Avropa İttifaqının orta perspektiv üçün əməkdaşlığına töhfə verən bir platforma olacaq", - deyə Neft Araşdırmaları Mərkəzinin rəhbəri vurğulayıb.

*Ləman Əliyeva*